

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 62 (23.704)

8 aprel 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Uğurlu aqrar siyasət muxtar respublikada kənd təsərrüfatının inkişafına öz töhfələrini verir

***Bu gün muxtar respublika iqtisadiyyatında böyük çəkiyə malik olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Dövlət tərəfindən aqrar sahədə infrastruktur layihələrinin davamlılığı, kənd təsərrüfatı sahəsinə dövlət qayğısının artırılması, aqrolizinq xidmətinin genişləndirilməsi, eləcə də kreditlərin verilməsinin sürətləndirilməsi aqrar sahənin inkişafına müsbət təsirini göstərir.***



Son illərdə muxtar respublikada qəbul edilmiş 2005-2010-cu illəri əhatə edən kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci, həmçinin 2016-2020-ci illəri əhatə edən meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının icrası kənd təsərrüfatı sahəsinin dinamik inkişafına təkan verib, ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaradıb. 2021-2025-ci illəri əhatə edəcək yeni Dövlət proqramı da əvvəlki proqramların icrası dövründə əldə olunmuş müsbət nəticələrin davamlılığını təmin edəcəkdir.

Davamlı və hərtərəfli dövlət dəstəyi sayəsində kənd təsərrüfatında əhəmiyyətli artıma nail olunub. 2020-ci ildə muxtar respublikada 63 min 405 hektar sahədə əkin aparılıb. Bu da 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən 37928,4 hektar çoxdur. Məhz görülən məqsədyönlü işlərin nəticəsidir ki, ötən il 537 milyon 584 min manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 103 milyon 158 min ABŞ dollarından çox məhsul ixrac olunmuşdur.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələr digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsini də əhatə etmişdir. Belə ki, həyata keçirilən layihələr istiqamətində əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülmüş, bu təminatda başlıca rol oynayan kənd təsərrüfatına 2020-ci ildə 13 milyon 357 min manat kredit yönəldilmişdir ki, bunun da 2 milyon 831 min 542 manatı Sahibkarlığın İnkişaf Fondunun payına düşmüşdür. Aqrar sektorun inkişafı və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində xüsusi önəm daşıyan sahələr üzrə dövlət maliyyə dəstəyi ilə 402 heyvandarlıq, 148 arıçılıq, 88 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 70 bağçılıq, 19 soyuducu anbar, 27 istixana kompleksi, 14 balıqçılıq, 11 üzümçülük təsərrüfatlarının yaradılması daxili tələbatı ödəməklə yanaşı, ixrac imkanlarını da artırmışdır. Bu təsərrüfatlarda müasir aqrotexniki xidmətlər tətbiq edilməklə yüksək məhsuldarlıq əldə olunur ki, bu, ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsində öz təsirini göstərir.





Kənd təsərrüfatında innovativ yenilikləri tətbiq etməklə 2020-ci ildə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 4 soyuducu anbarın yaradılması, 1 soyuducu anbarın genişləndirilməsi başa çatdırılmış, 2 soyuducu anbarın yaradılması davam etdirilmişdir. Bundan əlavə, 9 istixana təsərrüfatının yaradılması, 1 istixana təsərrüfatının genişləndirilməsi, 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası başa çatdırılmışdır. Həmçinin "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaiti hesabına ümumi tutumu 800 ton olan yeni soyuducu anbarın tikintisinə başlanılmışdır.

Muxtar respublikada daxili bazarın daha keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatında və bu istiqamətdə idxaldan asılılığın azaldılmasında ailə təsərrüfatlarının müstəsna rolu var. Sahibkarlığın İnkişafı Fondu tərəfindən onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün 2020-ci ildə 49 ailə təsərrüfatına 604 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilmiş, ailə təsərrüfatları 8 mindən çox tara ilə təmin olunmuşdur. İstehsal edilmiş məhsulların keyfiyyətinə nəzarətin və ixracının təmin edilməsi məqsədilə 2020-ci ildə Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 557 halda məhsullarda laboratoriya analizləri aparılmış, məhsulların standartlara uyğun markalanması təmin edilmişdir.

Eyni zamanda şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşid və rəqabət qabiliyyətinin stimullaşdırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayır.

Qeyd olunanlar bir daha göstərir ki, həyata keçirilən məqsədyönlü tədbirlərin uğurlu nəticələri muxtar respublikada kənd təsərrüfatının gələcəkdə də inkişafı üçün möhkəm zəmin yaradır, yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi qarşıya qoyulmuş hədəflərə doğru inamla aparır.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## İmtahanların keçirilməsi davam etdirilir



*Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi mart ayında da fəaliyyətini davam etdirərək üzərinə düşən vəzifələrin icrasını həyata keçirib. Ay ərzində dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib və 1 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 1 qərarı ləğv edilib.*

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 14 oktyabr 2020-ci il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsi martın 13-də başa çatıb. Müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim etmiş 341 namizəddən 235-i müsahibə mərhələsində iştirak edib, onlardan 115-i müvəffəqiyyət qazanıb. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış 90 nəfərin sənədi təyin olunmaq üçün müvafiq dövlət orqanlarına göndərilib.

Təhsilverənlərin sertifikatlaşdırılması imtahanlarının keçirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq mart ayında da davam edib. Aprelin 1-nə qədər, ümumilikdə, 4210 təhsilverən sertifikasiya imtahanında iştirak edib. Onlardan 2412-si müvafiq keçid balını toplayıb. Muxtar respublika üzrə riyaziyyat, ibtidai sinif, Azərbaycan dili və ədəbiyyatı, tarix, ingilis dili, fiziki tərbiyə, biologiya və texnologiya müəllimlərinin sertifikasiyası tam başa çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamına uyğun olaraq mərkəzə hamiliyə verilmiş Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələrinə "Dövlət qulluğu və dövlət qulluqçusu", "Dövlət qulluğunun icra funksiyalarının yerinə yetirilməsində dövlət qulluqçularının fərdi məsuliyyəti", "Dövlət qulluğuna qəbul üçün müsabiqənin keçirilməsi qaydaları" və "Dövlət qulluqçularına aid hüquqi məsuliyyət tədbirləri" mövzularında seminarlar keçirilib.

Mart ayı ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğu sahəsində təşkil olunmuş hazırlıq kurslarında 110, müəllimlərin işə qəbulu üçün hazırlıq kurslarında 21 nəfər, dövlət qulluğuna qəbulla bağlı keçirilən sınaq imtahanında isə 26 nəfər iştirak edib.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

## Naxçıvanda qızılgül əkini sahələri genişləndirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nda qızılgül sahələrinin genişləndirilməsi, gülab və gül yağı istehsalının da dəstəklənməsi nəzərdə tutulub.

Son illər bu istiqamətdə Ordubad rayonunun Əylis kəndi ərazisində onlarla hektar sahədə qızılgül kolları əkilib. Əkinlərə aqrotexniki qaydada qulluq göstərilir.

Dövlət proqramının icrası məqsədilə Kəngərli rayonunda qızılgül plantasiyasının sahəsi daha da genişləndirilib. Rayonda qızılgül sahələrinin artırılmasına xüsusi diqqət yetirilir. Təkcə ötən il burada 0,8 hektar ərazidə qızılgül plantasiyası salınıb. Ötən dövrdə qeyd olunan əraziyə 2300 qızılgül kolu əkilib. Rayonda qızılgül sahələrinin genişləndirilməsi qarşıya məqsəd qoyulub. Bu məqsədlə 0,3 hektarlıq yeni ərazidə 600 qızılgül kolu əkilib.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən mart ayında da diqqətdə saxlanılmışdır.***

## Torpaqlardan istifadəyə dövlət nəzarəti tədbirləri artırılır

"Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamına uyğun olaraq Şərur və Sədərək rayon inzibati ərazi vahidlərinin təsdiq olunmuş yeni sərhədlərinin döngə nöqtələrinin koordinatları naturaya köçürülmüşdür.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"na və Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planına uyğun olaraq Şərur, Kəngərli və Ordubad rayonlarında torpaqların münbitliyinin artırılması, əkin atlaslarına uyğun əkinlərin aparılması ilə bağlı maarifləndirici seminar-müşavirələr keçirilmişdir.

Ay ərzində Naxçıvan şəhəri, Babək və Şahbuz rayonları ərazisində mövcud olan kanal, kollektor və drenaj şəbəkələrinin əhatə etdiyi ərazilərin topoqrafik xəritələri hazırlanmışdır. Kəngərli və Sədərək rayonlarının ərazi vahidləri üzrə həyətyanı və pay torpaq sahələrinin elektron kadastr xəritələri yenilənərək məlumat bazasına yerləşdirilmişdir. Torpaqlardan istifadə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Çəmənli, Arpaçay, Çərçiboğan, Çomaxtur və Ələkli kəndlərinin ərazisində monitorinqlər aparılmışdır. Kəngərli rayonunun Qarabağlar, Şahtaxtı, Böyükdüz, Qabıllı, Xıncab, Təzəkənd və Yurdçu kəndlərinin ərazisində aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir.

Torpaqların elektron uçotunun aparılması məqsədilə Culfa və Ordubad bələdiyyələri üzrə bütün torpaq sahələrinin elektron kadastr uçotunun informasiya sisteminə yerləşdirilməsi başa çatdırılmışdır.

Ötən ay 540 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 428 texniki sənəd hazırlanmış, yeni yaranmış 25 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 92 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət vasitəsilə 7 yaşayış məntəqəsində 33 vətəndaşın müraciətinə baxılmış, 1 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 3 ailə təsərrüfatının icarəsinə verilmiş 0,23 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti**

# Yaradılmış şərait muxtar respublika sahibkarlarına yeni imkanlar açır

*(dəyirmi masa)*

*Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hər il ənənəvi olaraq sahibkarlarla görüşür, onların fəaliyyəti ilə maraqlanır, görüləcək işlərin, qarşıya qoyulan vəzifə və tapşırıqların konturları müəyyənləşdirilir. Növbəti belə görüş fevralın 27-də Naxçıvan Biznes Mərkəzində keçirildi və bu görüşdə sahibkarlarla birgə aidiyyəti dövlət qurumları da iştirak edirdi. Biz də hər dəfə keçirilən görüşlərin mahiyyəti haqqında oxucularımıza məlumat verir, görüləcək işlərdən bəhs edirik. Qərara aldıq ki, növbəti dəyirmi masada sahibkarlığın inkişafı ilə bağlı keçirilən həmin görüşdə müvafiq dövlət qurumlarına verilən tapşırıqları elə həmin qurumların nümayəndələri ilə birgə müzakirə edək. Beləliklə, redaksiyamızın qonaqları Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Çinarə Balayeva, Dövlət Gömrük Komitəsinin Gömrük əməliyyatları və risklərin idarə edilməsi bölməsinin rəis əvəzi Turqut Abbasov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Texniki tənzimləmə və standartlaşdırma şöbəsinin aparıcı məsləhətçisi Əli Şərifovdur.*

*– Çinarə xanım, ilk olaraq sizdən başlamaq istərdim. Çünki təmsil olunduğunuz qurum iqtisadi proseslərə birbaşa cavabdeh olan dövlət orqanıdır və ilk sualım belədir: hazırda İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlara hansı köməkliklər göstərilir?*

*Çinarə Balayeva:* – Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlara müxtəlif istiqamətli dəstək göstərilir. Sahibkarlığın İnkişafı Fondu sahibkarlar tərəfindən daxil olan müraciətlər üzrə iqtisadi cəhətdən səmərəli hesab edilən müxtəlif təyinatlı prioritet layihələrlə bağlı sahibkarlıq subyektlərinə və ailə təsərrüfatlarına biznes planların və digər zəruri sənədlərin hazırlanması istiqamətində köməkliklər göstərir. Həmçinin fond tərəfindən sahibkarlara və ailə təsərrüfatlarına illik 5 faizlə kreditlər verilir. Bundan başqa, nazirlik kiçik və orta sahibkarlıq subyektlərinə biznesə başlanması, mövcud sahibkarlıq fəaliyyətinin idarə edilməsi və innovativ üsullarla genişləndirilməsi üçün köməkliklər göstərir.

*– Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sahibkarlarla görüşündə kiçik və orta sahibkarlığın inkişaf istiqamətlərinin araşdırılmasını qeyd etdi. Bu sahədə hansı işlərin görüləcəyi planlaşdırılır?*

*Çinarə Balayeva:* – Qeyd edim ki, Ali Məclis Sədrinin fevralın 27-də sahibkarlarla keçirdiyi görüşündə qarşıya qoyduğu vəzifələrə uyğun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən icra planı hazırlanaraq təsdiq edilib. Aidiyyəti şöbələr tərəfindən istehsal olunacaq məhsulların xammal bazası, satış bazarı, alıcılıq və rəqabət qabiliyyətinin təhlil edilməsi, iqtisadi səmərəliliyi müəyyənləşdirilmiş layihələrin hazırlanması, dövlət maliyyə dəstəyinin göstərilməsi, məhsulların ixracyönümlülüyünün və rəqabətqabiliyyətliliyinin artırılması kimi işlər görülür.

*– Hamımıza məlumdur ki, güclü iqtisadiyyat istehsala əsaslanır. İstehsalda isə əsas amil keyfiyyətin üzərində qurulur. Ali Məclisin Sədri sahibkarlarla görüşündə bu məsələni xüsusi qeyd etdi ki, hər bir sahibkar kəmiyyətdən çox keyfiyyət amilinə diqqət yetirməlidir. Əli müəllim, təmsil olunduğunuz xidmətin bu sahədəki fəaliyyətini necə xarakterizə edərdiniz?*

*Əli Şərifov:* – Keyfiyyətli yerli məhsulların istehsalının təşviqinə xidmət edən müxtəlif nəzarət tədbirləri Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin qarşısına qoyulmuş mühüm və təxirəsalınmaz vəzifələrdəndir. Xidmət tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin və məhsul göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu daim diqqətdə saxlanılır və məhsul nümunələrinin keyfiyyət, təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunur. Xidmət tərəfindən istehsal müəssisələrinə maarifləndirmə xarakterli baxış keçirilir, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülür.

*– Sahibkarlarla görüşdə Ali Məclisin Sədri bu məsələyə də toxundu ki, yerli xammala əsaslanan istehsal diqqətdə saxlanılmalıdır. Çinarə xanım, hazırda yerli resurslara əsaslanan hansı istehsal və xidmət sahələrinin yaradılması nəzərdə tutulur?*

*Çinarə Balayeva:* – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”nda yerli xammala əsaslanan istehsal müəssisələrinin yaradılması qarşıya qoyulub. Belə ki, bu istiqamətdə yun tədarükü və iplik istehsalı müəssisəsinin, kompost gübrə istehsalı müəssisəsinin yaradılması, qarğıdalı yağı istehsalına başlanılması, gülab və gül yağı istehsalının dəstəklənməsi, yeni duz şaxtasının açılması, müasir duz istehsalı müəssisəsinin, kafel və metlax, sabun, enerji içkilərinin, həmçinin plastik məmulatların istehsalı, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının istehsalı, tələbata uyğun çörək istehsalı sahələrinin yaradılması, müasir texnologiyalar əsasında qurudulmuş və dondurulmuş meyvə-tərəvəz emalı müəssisələrinin qurulması nəzərdə tutulub. Həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, bölgələrdə süd toplama məntəqələrinin, heyvandarlıq, arıçılıq, quşçuluq, kartofçuluq, bağçılıq, istixana təsərrüfatı, göbələk istehsalı sahələrinin yaradılması da nəzərdə tutulub.




*– Muxtar respublikamızda son illərdə diqqət mərkəzində saxlanılan fəaliyyət sahələrindən biri də ailə təsərrüfatlarıdır. Bu gün ailə təsərrüfatlarının inkişaf etdirilməsi ilə bağlı hansı işlər görülür?*

*Əli Şərifov:* – Xidmət tərəfindən muxtar respublikada istər fəaliyyətdə olan, istərsə də yeni fəaliyyətə başlayan ailə təsərrüfatlarına maarifləndirici, metodik köməklik göstərilir. Təsərrüfat sahibləri məhsulun təhlükəsizlik göstəricilərinin müəyyənləşdirilməsində, qablaşdırılmasında, etiketlənməsində bu dəstəkdən yararlanırlar. Az əvvəl adıçəkilən Dövlət proqramında da ailə təsərrüfatlarının dəstəklənməsi, həmçinin emal olunmuş kənd təsərrüfatı məhsullarının çeşidinin və əmtəəlik göstəricilərinin yüksəldilməsi nəzərdə tutulur.

*Çinarə Balayeva:* – Xüsusilə həmin proqramın müvafiq bəndində xidmət sahələri ilə ailə təsərrüfatları arasında əlaqələrin gücləndirilməsi öz əksini tapıb. Qeyd edim ki, bu günə kimi muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində mühüm addımlar atılıb və görülən tədbirlər artıq öz bəhrəsini verməkdədir. Belə ki, 2020-ci ildə 49 ailə təsərrüfatına 604 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 8 mindən çox tara ilə təmin olunub, “Ailə təsərrüfatı məhsulları” yarmarkası keçirilib. İstehsal edilmiş məhsulların keyfiyyətinə nəzarətin və ixracının təmin edilməsi məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 557 halda məhsullarda laboratoriya analizləri aparılıb, məhsulların standartlara uyğun markalanması təmin edilib. Cari ildə də qarşıya qoyulan tapşırıqlara müvafiq olaraq muxtar respublikada fəaliyyət göstərən fermer və ailə təsərrüfatlarına lazımi dəstək göstəriləcək.

*– Çinarə xanım, qeyri-ərzaq məhsullarının istehsalı ilə məşğul olan ailə təsərrüfatı varmı? Bu istiqamətdə hər hansı bir təbliğat aparılırmı?*

*Çinarə Balayeva:* – Muxtar respublikada ailə təsərrüfatları daha çox heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə fəaliyyət göstərirlər. Digər qeyri-ərzaq istehsalı sahələri ilə məşğul olan ailə təsərrüfatlarının fəaliyyətinin çoxşaxəliliyinin təmin edilməsi istiqamətində sənətkarlıq sahəsi ilə məşğul olan ailə təsərrüfatlarının müəyyənləşdirilməsi, hazırladıqları əl işlərinin Naxçıvan Biznes Mərkəzinin satış mağazalarında, ticarət obyektlərində, festivallarda və yarmarkalarda satış imkanlarının araşdırılması və satışının təmin edilməsi işləri həyata keçirilir. Görülən bu işlər həmin ailə təsərrüfatlarının inkişafını təmin edir və onlardan bəzilərinin kiçik təsərrüfatyönümlü sahibkarlıq subyektlərinə çevrilməsinə şərait yaradır.

*– Bildiyiniz kimi, bu il də Naxçıvanda “İxrac ili” davam edir. Bu gün yerli məhsullarımızın ixracı ilə bağlı yaradılmış şərait nədən ibarətdir? Turqut müəllim, istərdik sualımıza cavabı sizdən eşidək.*

*Turqut Abbasov:* – Muxtar respublikamızda sahibkarlığın inkişafına yaradılmış şərait məhsul ixracını da stimullaşdırıb. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı” bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Fərmanına əsasən “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqinə başlanılması biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyini artırıb, gömrük işi sahəsində innovativ layihələrdən geniş istifadə ilə gömrük nəzarəti və rəsmiləşdirilməsinin asan və sürətli şəkildə həyata keçirilməsi təmin olunub. “Bir pəncərə” prinsipinin təkmilləşdirilməsi, “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqi gömrük nəzarətinin daha çevik və şəffaf şəkildə həyata keçirilməsinə, fiziki gömrük yoxlamalarının minimuma endirilməsinə, məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsiplərinə uyğun olaraq inkişaf etdirilməsinə imkan verir. Buna görədir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə müraciət etməklə “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə hüququ əldə edən yerli istehsal sahələri ixrac əməliyyatlarının rəsmiləşdirilməsini gömrük orqanına gəlmədən həyata keçirir, gömrük əməkdaşının iştirakı olmadan mallarını öz anbarından sərhəd gömrük orqanına göndərə bilirlər. “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə yerli məhsulların xarici bazarlara daha tez və keyfiyyətli şəkildə çatdırılmasına və onların rəqabətqabiliyyətliliyinin yüksəlməsinə münbit şərait yaradır.

*– Bu gün hansı şirkətlərimiz bundan yararlana bilirlər?*

*Turqut Abbasov:* – Gömrük orqanları tərəfindən muxtar respublikamızda “Yaşıl dəhliz” buraxılış sistemindən istifadənin artırılması ilə bağlı sahibkarlıq subyektləri ilə iş aparılır, bu sistemin əhəmiyyəti və üstünlükləri izah olunur. 2020-ci ildə “Gəmiqaya Bellissa Mebel Fabriki”, “Naxçıvan Sement Zavodu”, “Ləzzət Biskivit və Şokolad Fabriki” və “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti hüquqi şəxslərinə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən ixrac əməliyyatları üzrə “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ verilib. Sahibkarlıq subyektlərinin işini asanlaşdıran mühüm amillərdən biri də Azərbaycan Respublikasının əsas ərazi vahidindən keçməklə digər ölkələrə ixrac olunan Naxçıvan məhsullarının ixrac gömrük proseduru üzrə elektron qaydada rəsmiləşdirilməsinin muxtar respublika gömrük orqanları tərəfindən həyata keçirilməsidir. Ümumilikdə, qeyd etmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması istiqamətində görülən işlərin nəticəsi olaraq ixracın həcmi ilbəil artır. 2020-ci ildə bu artım 1,9 faiz olub. İxrac əməliyyatları, əsasən, Gürcüstan, İran İslam, Türkiyə, Əfqanıstan, Yəmən, Oman, Türkmənistan respublikaları, Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası ilə həyata keçirilib.

*– Çinarə xanım, yerli məhsullarımızın ixracının təşviqindən söz düşmüşkən, xarici bazarlara çıxış sahəsində görülən işlər haqqında məlumatları sizdən almaq istərdik.*

*Çinarə Balayeva:* – Bu gün muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı müəssisələrdə istehsal olunan vafli məhsulları, tütün məmulatları, travertin, mərmər, mebel məmulatları, mineral sular, kapsul preformaları 2020-ci ildə Gürcüstan, Türkiyə, Estoniya, ABŞ, İraq, İran, Türkmənistan, Rusiya, Əfqanıstan, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Yəmən, Oman Sultanlığı, Belçika Krallığı olmaqla, 12-dən çox ölkəyə ixrac edilib, istehsal olunan yerli məhsulların ixracı məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 127 halda mənşə sertifikatının verilməsi təmin edilib. Ənənəvi məhsullarımızla yanaşı, siqaret və mebel məmulatlarının da ixracına başlanılıb. Artıq ABŞ, Yəmən, Oman Sultanlığı, Əfqanıstan kimi ölkələr yerli istehsal məhsullarının ixracında yeni satış bazarları kimi çıxış edir və bu tendensiya davam etməkdədir. Qeyd edim ki, 2020-ci ildə 3 milyon 360 min manat dəyərində investisiya təşviqi və təsdiqedici sənədinin, 23 halda ixrac əməliyyatı üzrə 43 min manat məbləğdə ixrac təşviqinin ödənilməsi təmin edilib. Həmçinin yerli ixracatçılarımıza dəstək məqsədilə Yaxın Şərq, Körfəz ölkələri, Rusiya Federasiyası, Avropa İttifaqı ölkələrinin bazarları araşdırılıb, həmin ölkələrin bazar konyunkturası, qanunvericilik tələbləri öyrənilib və nəticələr sahibkarlıq subyektlərinin diqqətinə çatdırılıb. İstehsal olunan məhsulların ixracının və ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən 15 ixrac potensiallı müəssisənin Kiyev, Minsk, Riqa, Varşava, Nursultan şəhərlərində fəaliyyət göstərən Azərbaycan Ticarət Evləri ilə əlaqələndirilməsi təmin edilib, yerli şirkətlərə dair kataloq və digər təbliğat materialları təqdim olunub. Onu da qeyd edim ki, “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”ında ailə təsərrüfatlarının ixracyönümlü məhsul istehsalına təşviq edilməsi xüsusi vurğulanıb. Qarşıdakı dövrdə İqtisadiyyat Nazirliyi digər müvafiq qurumlarla birgə bu istiqamətdə də iş aparacaq.

*– Turqut müəllim, bəs məhsulların ixrac-idxalında Dövlət Gömrük Komitəsi tərəfindən hansı elektron xidmətlər tətbiq olunur?*

*Turqut Abbasov:* – İndi sərhədi keçən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi vahid elektron sistem vasitəsilə həyata keçirilir. Gömrük bəyannamələri və digər malmüşayiət sənədləri gömrük orqanlarına elektron mühitdə təqdim edilir. Xarici iqtisadi fəaliyyət iştirakçısı sənədlərini gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib və təqdim etdiyi təqdirdə rəsmiləşdirmə prosesi bir neçə dəqiqə ərzində başa çatdırılır. Muxtar respublikamızın istənilən gömrük sərhəd-buraxılış məntəqəsində vətəndaşların, mal və nəqliyyat vasitələrinin sürətli keçidinin təmin edilməsi üçün Dövlət Gömrük Komitəsi tərəfindən 20-yə yaxın elektron xidmət təqdim olunur. Hazırda “Elektron Hökumət Portalı” – *www.e-gov.az* və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet saytı olan *www.dgk.nmr.az* üzərindən bu elektron xidmətlərdən istifadə etmək mümkündür. Saytda elektron xidmətlərdən istifadəyə dair təlimatlar yerləşdirilib. Gömrük-biznes əməkdaşlığı çərçivəsində elektron müstəvidə həyata keçirilən ən mühüm layihələrdən biri “Qısa idxal bəyannaməsinin qəbulu”, “Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron Gömrük Bəyannaməsinin qəbulu”, “Gömrük ödənişlərinin həyata keçirilməsi” elektron xidmətlərinin istifadəyə verilməsidir. Gömrük rəsmiləşdirilməsində şəffaflığın təmin edilməsi və bəyanetmə prosesinin asanlaşdırılması məqsədilə yaradılan bu xidmətlər malların və nəqliyyat vasitələrinin kağızsız texnologiya əsasında internet üzərindən bəyan edilməsinə imkan verir. Bəyannamələrin gömrük orqanlarına elektron formada təqdim olunması xarici iqtisadi fəaliyyət iştirakçısına istənilən dövr üzrə öz idxal-ixrac əməliyyatları və təqdim etdiyi bəyannamələr barədə məlumat almağa imkan verir. Bu məqsədlə “E-idxal-ixrac əməliyyatlarım” və “Gömrük bəyannamələri haqqında məlumatın verilməsi” elektron xidmətləri fəaliyyət göstərir. Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə keçirilən görüşlərdə bütün sahibkarlıq subyektlərinə göstərilən elektron gömrük xidmətlərindən yararlanmaq üçün “şəxsi kabinet” yaratmaları tövsiyə olunur.

*– Turqut müəllim, bu gün ailə təsərrüfatı məhsullarının ixracında və ya belə təsərrüfatlar üçün gətirilən xammal və ya malların idxalında hansı güzəştlər tətbiq edilir?*

*Turqut Abbasov:* – Qəbul olunmuş Dövlət proqramlarına əsasən ailə təsərrüfatlarının fəaliyyəti üçün muxtar respublikaya gətirilən bütün növ xammal, avadanlıq, qablaşdırma ləvazimatları və materialların güzəştli şərtlərlə, sadələşmiş qaydada buraxılışının təmin olunması bu sahədə keyfiyyətli məhsul istehsalının və ixrac imkanlarının artmasına səbəb olur. 2020-ci il ərzində 1953958 kiloqram toxumluq kartof, 266860 ədəd tərəvəz şitili, 93275 kiloqram buğda toxumu, 32921 kiloqram qarğıdalı toxumu, məhsuldarlığın artırılması üçün 971983 kiloqram müxtəlif növ gübrələr, məhsul tədarükü üçün 573020 ədəd boş kisə, 19962 plastik yeşik, 10335 kiloqram bitkiçilik dərmanı, həmçinin 90 adda müxtəlif qablaşma mallarının sadələşdirilmiş qaydada buraxılışı təmin edilib.

*– Sahibkarlığın inkişafı ilə bağlı dəyirmi masada iştirakınız üçün hər birinizə təşəkkür edirəm.*

***Hazırladı:***
**Səbuhi HƏSƏNOV**

*Əfsanəyə dönən ömürlər*

## Şəhid olduğu zirvəyə soyadı verilən, döyüş yoldaşları tərəfindən sərkərdə adlandırılan kapitan

*2020-ci il dünyanın yaddaşında qlobal problemlərlə dolu, Azərbaycan xalqı üçün isə daim fəxr və qürurla xatırlanacaq bir il kimi qaldı. 30 illik bir dövrdə torpaqlarımızın həsrəti ilə yaşayır, qəlbimizdə daim nisgil, qəm daşıyırdıq. Düşmənin vəhşicəsinə çalıb-çapıb, talan etdiyi torpaqlarımıza yalnız şəkillərdən baxır, haqqında yazılardan oxuyur, bir gün həmin yerlərə getmək, görmək və qovuşmaq arzusu ilə yaşayırdıq. Nəhayət ki, o gün gəldi. 44 gün davam edən şanlı Vətən müharibəsində qazandığımız tarixi Qələbə nəticəsində arzumuza çatdıq. Bu Qələbə elə-belə əldə edilmədi. Müharibədə 3000-ə yaxın hərbi qulluqçumuz qəhrəmanlıq və şücaətlə döyüşərək "şəhidlik" adlı ali məqama yüksəlməklə bu böyük Zəfəri bəxş etdi bizlərə...*



Vətən müharibəsində düşmənə qarşı şərəf və ləyaqətlə vuruşan qəhrəman, qorxmaz igidlərimizdən biri də Elməddin Meydanovdur. Şəhidin qardaşı İsmayıl Meydanovla həmsöhbət oluruq. Ona qardaşı haqqında danışmaq çətin olsa da, bizə ətraflı məlumat verir. Deyir ki, Elməddin 11 sentyabr 1989-cu ildə Şərur rayonunun Vərməziyar kəndində anadan olmuşdu. 7-ci sinfə qədər Türkiyənin İğdır şəhərində "Qurtuluş" adlı ibtidai məktəbdə oxumuşdu. Burada təhsil aldığı illərdə türk yoldaşlarına deyirmiş ki, gələcəkdə mən komutan (komandir) olacağam. Bu məktəbdən ailəmizə həmişə təşəkkür və təqdir sənədi gəlirdi. Qardaşım çox savadlı idi. Müəllimləri deyirdi ki, başqa bir sahəni seçsin, savadı buna imkan verir, onun isə uşaqlıqdan bir arzusu var idi. Hərbçi olub Vətənin keşiyində dayanmaq. Belə də oldu. İmtahan verərək Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olundu. 2007-ci ildə həmin liseyi əlaçı kursant kimi qırmızı diploma bitirdi, təhsil illərində əldə etdiyi nailiyyətlərə görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən də mükafatlandırıldı. Ali təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirdi. Buranı bitirdikdən sonra Cəlilabad şəhərinin Göytəpə qəsəbəsində yerləşən "N" hərbi hissədə hərbçi, daha sonra isə zastava rəisi, baş zabit kimi fəaliyyət göstərirdi. Qardaşım Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kapitan rütbəsi ilə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, – deyir müsahibim. Füzuli, Zəngilan rayonları istiqamətlərində gedən döyüşlərdə əsgərləri ilə çiyin-çiyinə igidlik və rəşadətlə döyüşüb, bir sıra kəndlərin, yüksəkliklərin azad edilməsində, düşmənin canlı qüvvəsinin, texnikalarının məhv edilməsində və ələ keçirilməsində şücaət göstərib. Qardaşım ağır döyüşlərdə amansız düşmənlə son damla qanınadək mübarizə apararaq şəhid olub, şəhadətə yüksəldiyi zirvəyə onun soyadını veriblər. İndi həmin zirvə "Meydanov zirvəsi" adlanır. O biri qardaşım Saleh də Naxçıvan şəhərindən Xüsusi Təyinatlı bölmənin tərkibində döyüşə yollanmışdı. Döyüşlərdə, düşmənin canlı qüvvəsinin məhv edilməsində mərdliklə iştirak edib, sağ çiynindən qəlpə yarası alıb, hazırda Naxçıvandadır.

Qardaşı Elməddinin vətənpərvərliyindən ağızdolusu danışan İsmayıl müəllim deyir: – Anamla sonuncu dəfə danışanda dedi ki, ağlama, ana, başını həmişə dik tut, sənin iki oğlun burada, hər bir Vətən övladının illərdir, arzusunda olduğu torpaqlarımızın işğaldan azad edilməsi uğrunda vuruşur. Həmişə deyərdi ki, şəhid olmaq istəklə olmur, şəhidlik məqamına yüksəlməyə gərək can atasan, hər kəs şəhid ola bilməz. Qardaşımla heç bir dəfə də incikliyimiz olmadı, ona hər zəng etdiyimdə qoymazdı telefon ikinci dəfə çalsın. Yerini soruşardıq, səsim gəlirsə, bəsdir, – deyərdi. Şəhid olduğu gün, sanki itirəyimə dammışdı, zəng etdim, zəng çatmadı. Günortadan sonra bir də zəng etdim, bu dəfə telefonu çalırdı, sevindim. Sən demə, həmin vaxt cənazəsini dağlıq ərazidən aşağı endirmişlər. 32 yaşında şəhidlik zirvəsinə yüksəldi mənim igid, cəsur, qorxmaz qardaşım. Ölümündən sonra onu tanıyan hər kəs, əsgərləri, döyüş yoldaşları zəng edirlər, qardaşım haqqında ancaq xoş sözlər deyirlər. Qulluq etdiyi hərbi hissədə ondan yuxarı vəzifələrdə çalışanlar da var idi. Onlar da bildirirlər ki, bir çox vacib məsələlərdə ondan məsləhət alar, yaxşı keyfiyyətləri mənimsəyərdik. Onu da deyirlər ki, hər kəs savaşa sevinə-sevinə getməz, onun sevincini gözlərindən oxumaq olurdu, əsgərlərinə də ruh, qüvvət verirdi. O, həmişə anama deyərdi ki, torpaqlarımızı düşmən tapdağından azad etmək Əli ilə Yusifə (oğulları) qalmayacaq, onlar böyüyənədək torpaqlarımızı biz azad edəcəyik. Çox vətənpərvər idi, ailəmizdə onun yeri bir başqa idi. Qardaşım gücdə də, qüvvətdə də, savadda da üstün idi. Bəli, şəhidlik hamıya qismət olmur. Qardaşımın Vətən, torpaq sevgisi, vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Qardaşımla qürur duyuruq, fəxr edirik. O, müqəddəs amal uğrunda şəhid olmaqla əbədiyyət qazanan insanlardandır.

Döyüş yoldaşı, baş leytenant Əli Həsənzadənin dediklərindən: – Mən Elməddini özümə böyük qardaş bilirdim. O, insana yalnız doğru yol göstərən, çətinlikdən çıxaran dost idi. Əsgərləri də həm komandir, həm də böyük qardaş kimi onun xətrini o qədər çox istəyirdilər ki, əmrini dərhal yerinə yetirirdilər. Mən Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Akademiyasının II kursunda oxuyanda o, Cəlilabad rayonunda "Göytəpə" Sərhəd Dəstəsinin sərhəd zastavasında rəis müavini idi. Orada biraylıq praktikada ikən tanış olmuşduq. Qardaşım istər mülki, istərsə də hərbi həyatda böyüklə-böyük, kiçiklə-kiçik kimi rəftar edən, köməyə ehtiyacı olana əl tutan, bir kimsənin qəlbinə dəyməyən, yüksək insani xüsusiyyətlərə malik sülhpərvər insan idi. Elməddini tanıyanlar onu "Mebo" ləqəbi ilə çağırırdılar. Şanlı Vətən müharibəsində onunla birgə döyüşlərdə iştirak edib, eyni bir vaxtda döyüş tapşırıqlarını yerinə yetirmişik. O, sözün əsl mənasında, sərkərdə idi. Gənc olmasına baxmayaraq, təcrübəli və savadlı idi. O, sərrast atış qabiliyyəti, döyüş bacarığı ilə son damla qanına qədər düşmənlə mübarizə apardı. Sonuncu döyüşümüzdə vuruşduq, şəhidimiz, yaralılarımız oldu, mən də sol dizimdən qəlpə yarası aldım. Qardaşım həmin gün, oktyabrın 27-də saat 19[35]-də qollarımda şəhid oldu, son sözünü deyə bilmədi. Onun şəhid olduğu zirvəyə sonra "Meydanov zirvəsi" adı verildi. Allah bütün şəhidlərimizə, dostum, qardaşım Elməddin Meydanova da rəhmət eləsin, onun valideynləri qarşısında baş əyirəm, qazilərimizə də Allahdan şəfa diləyirəm. Elməddin qardaşım vətənpərvər insan, qardaş, dost kimi, bu Vətənin igid oğlu kimi daim xatırlanacaq, onu unutmayacağıq.

*Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilən kapitan Elməddin Meydanov, eləcə də torpaqlarımızın azadlığı uğrunda canlarından keçən digər şəhidlərimiz daim qəlbimizdə, tariximizdə yaşayacaq, qürurla xatırlanacaqlar.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

---

*Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində Ordubad rayon Nüsnüs kənd sakini Oruc Əliyev tərəfindən hədiyyə edilmiş eksponatların təqdimat mərasimi olub.*

## Növbəti eksponat təqdimatı olub



Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət nazirinin müavini Həsən Kərimov açaraq bildirib ki, muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması daim diqqət mərkəzində saxlanılır. Bunun ifadəsidir ki, ötən il 5 eksponat təqdimatı keçirilib, muzeylərimizə 662 ədəd yeni eksponat təqdim edilib. Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilən qədim "Qurani-Kərim", Sədi Şirazinin qədim kitabı, mis sikkələr, döyüş sursatı və məişətdə istifadə edilən kilim, həsir, mis və saxsı qablar kimi maddi mədəniyyət nümunələri xalqımızın inanc və etiqadını, intellekt səviyyəsini, eləcə də həyat tərzini, mədəni həyatını və məişətini özündə yaşadan muzey eksponatlarıdır.

Nazir müavini hədiyyə olunan eksponatlara görə Oruc Əliyevə minnətdarlıq edib.

Həsən Kərimov muxtar respublikada milli dəyərlərimizin, mədəniyyət və incəsənətimizin qorunması, öyrənilməsi, təbliği və inkişafına göstərilən diqqət və qayğıya görə bütün mədəniyyət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra eksponat hədiyyə edən Nüsnüs kənd sakini Oruc Əliyev və Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin baş fond mühafizi-elmi işçisi, direktor əvəzi Züleyxa Cəfərova çıxış ediblər.

Sonda hədiyyə olunmuş maddi mədəniyyət nümunələrinin sərgisinə baxış keçirilib.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

---

## Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi diqqətdə saxlanılır

Muxtar respublikada uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması ilə əlaqədar 2021-ci il 29 yanvar tarixində Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilmiş, 2021-ci il üçün iş planı təsdiq edilmiş və icrası üçün müvafiq tapşırıqlar verilmişdir. Bundan əlavə, ötən il ərzində uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair komissiya tərəfindən hazırlanmış muxtar respublika üzrə illik hesabat aidiyyəti üzrə təqdim edilmişdir.

Komissiya tərəfindən cari ilin müvafiq dövrü ərzində muxtar respublikada olan bütün uşaqların, o cümlədən hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, təhsilə cəlb olunması, sosial müdafiələrinin təşkili, xüsusi istedadlarının üzə çıxarılması, müalicə olunmaları ilə əlaqədar tədbirlər görülmüş, monitorinqlər təşkil edilmiş, onlarla bağlı qabaqlayıcı profilaktik tədbirlər həyata keçirilmişdir. Belə ki, 2021-ci il ərzində 30 uşaq müəssisəsində monitorinq aparılması planlaşdırılmışdır. Monitorinqlər zamanı uşaqların dərsə davamiyyəti, tədris prosesinin keyfiyyəti, müəssisənin sanitar-gigiyenik vəziyyəti, təhlükəsizlik tədbirləri, eləcə də uşaqlarla davranış və hüquqlarının müdafiəsi, müəssisə binasının infrastrukturu və digər sahələr yoxlanılır. Bu ilin ötən dövrü ərzində ekspert qrupunun iştirakı ilə 4 məktəb, 2 məktəbəqədər və 1 lisey olmaqla, 7 uşaq müəssisəsində monitorinq aparılmışdır. Monitorinqlərin nəticələri, o cümlədən aşkar edilmiş nöqsanlar ekspert qrupunun üzvləri tərəfindən aktlaşdırılmış və aradan qaldırılması ilə bağlı tədbirlər görülərək komissiyaya məlumat verilmişdir.

Məlumat üçün bildirək ki, muxtar respublikada hazırda hər iki valideynini itirmiş 41, valideyn himayəsindən məhrum 37 uşaq vardır. Ümumilikdə, bu kateqoriyaya aid olan uşaqların sayı 78-dir. Belə ki, 2021-ci ilin ötən dövrü ərzində muxtar respublikada 5 uşaq qəyyumluq və himayəyə verilmişdir. Muxtar respublikada uşaq hüquqlarının qorunması istiqamətində görülən tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya tərəfindən il ərzində müvafiq uşaqların yaşadıqları evlərə baş çəkilir, problem və qayğıları araşdırılır və həlli istiqamətində aidiyyəti üzrə tədbirlər görülür. Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ekspert qrupu və yerli icra hakimiyyətləri yanında Qəyyumluq və Himayə komissiyalarının üzvləri ilə birlikdə Naxçıvan şəhəri və Şərur rayonu üzrə valideyn himayəsindən məhrum, hər iki valideynini itirmiş uşaqlardan 7-nin yaşadığı evlərdə monitorinq keçirilmişdir. Monitorinq zamanı məlum olmuşdur ki, həmin uşaqlar aidiyyəti üzrə himayə və qəyyumluğa verilmişdir. Uşaqların sağlamlığı, eləcə də mənzil yaşayış, tərbiyə təhsil şəraitləri, sosial vəziyyətləri yoxlanılmış, qəyyum, himayədar və uşaqlar ilə geniş söhbətlər aparılmışdır. Aparılan monitorinqlərin nəticəsində müvafiq uşaqlarla bağlı hüquq pozulması hallarına rast gəlinməmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması istiqamətində bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

---

## Televiziya və radioların fəaliyyətinə nəzarət gücləndirilib

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası mart ayında da muxtar respublikanın teleradiolarının fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır.*

Naxçıvan Dövlət Televiziyasının monitorinqi zamanı məlum olmuşdur ki, ötən ay televiziyanın öz məhsulları efirin 72 faizini əhatə etmiş, digər telekanalların istehsalı olan materialların yayımı minimum həddə endirilmişdir. Mart ayında 128 televiziya verilişi efirə təqdim olunmuşdur. Sevindirici haldır ki, ötən ay yayımlanan verilişlərdə idman və gəncliyin mükəmməl harmoniyası aparıcı, müəllif, efir rejissoru və digər əməkdaşlar tərəfindən uğurla efirə işlənmişdir. Televiziya əməkdaşları mart ayında da sosial şəbəkələrdə fəallıq nümayiş etdirmişdir.

Naxçıvan Dövlət Radiosu mart ayı ərzində 611 saat efirdə olmuşdur. Ümumi efirin 44 faizini radionun öz istehsalı olan verilişlər təşkil etmişdir. Bəhs edilən dövrdə radio efirində yeni layihələr təqdim edilmişdir. Ötən monitorinqlərdə Televiziya və Radio Şurası tərəfindən radioda uşaq verilişlərinin olmaması ilə bağlı nöqsanın aradan qaldırılması məqsədilə "Dostlarla birlikdə" proqramı dinləyicilərə çatdırılmışdır.

Yayım profili, əsasən, tədrisyönümlü olan "Kanal 35" televiziyasının mart ayındakı fəaliyyəti şura tərəfindən yaxından izlənmiş, televiziyanın öz istehsalı olan materiallar diqqətdə saxlanılmışdır. Televiziya tərəfindən "Nizami Gəncəvi ili" ilə əlaqədar "Nizami Gəncəvi 880" teledərsinin 4 sayı, "Kurikulumun tədrisi" materialının 4 sayı efirə təqdim olunmuş, "Təhsildə bu gün" adlı silsilə verilişlər hazırlanmışdır. Tədris yayımı ilə yanaşı, mart ayında muxtar respublikamıza həsr olunmuş 34 telematerial efirə yayımlanmışdır.

Şura əməkdaşları mart ayında "Naxçıvanın səsi" radiosunun efirini müntəzəm olaraq izləmiş və monitorinqini aparmışdır. Bəhs edilən dövrdə radio 248 saat efirdə olmuşdur. Efir müddətində 56 saat canlı yayım proqramları və verilişlər hazırlanaraq dinləyicilərə təqdim edilmişdir.

20 fevral 2021-ci il tarixdən Naxçıvan Dövlət Universitetinin televiziya kanalı muxtar respublika ərazisində yayıma başlamışdır. Yayımında tədrisyönümlü verilişlərin üstünlük təşkil etdiyi kanalda hazırlanan xəbər proqramlarında efirə verilən süjetlərdə bir sıra nöqsanlar müşahidə edilmişdir. Şura yaradıcı və texniki heyətlə mütəmadi görüşlərin keçirilməsini və yaradıcılıq köməyinin göstərilməsini iş planına daxil etmiş, bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsini qarşıya məqsəd qoymuşdur.

Təhlilə əsasən məlum olmuşdur ki, bəhs edilən dövrdə sosial platformalarda Naxçıvanla bağlı 800-dən çox foto və video, həmçinin xəbər paylaşılmışdır. Hesabat dövründə Şahbuz rayonunda yaradılan Ağbulaq Xizək Mərkəzindən hazırlanan materiallar, fotoreportajlar və digər məqalələr şuranın təşəbbüsü ilə Küveytin *dasmannews.com* internet saytında, Türkiyənin Anadolu Ajansının, TRT HABER və TRT-AVAZ-ın saytlarında və digərlərində yerləşdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası**

## Müsabiqə başa çatıb



*Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi"nə yekun vurulub.*

Bununla bağlı keçirilən tədbirdə çıxış edən Təhsil naziri Rəhman Məmmədov bildirib ki, şagirdlərin maraq və bacarıqlarını, intellektual səviyyə və yaradıcı qabiliyyətlərini aşkarlamaq, onların fərdi potensiallarını inkişaf etdirmək məqsədilə təşkil edilən, 2019-2020-ci tədris ilindən keçirilən "Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi" də muxtar respublikada xüsusi qabiliyyəti ilə seçilən məktəblilərin üzə çıxarılmasında, xalq sənətkarlığı nümunələrinin nümayişi və təbliği mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək belə müsabiqələrin, ümumilikdə, qeyri-adi istedada malik yeniyetmə və gənclərin qabiliyyətlərinin düzgün istiqamətləndirilməsi, muxtar respublikada təsviri incəsənətin, xalq yaradıcılığının inkişafı baxımından əhəmiyyətindən danışıb.

Qeyd edək ki, muxtar respublikanın bütün məktəblərini əhatə edən müsabiqədə 512 şagirdin müxtəlif mövzularda – rəsm, toxuma, tikmə, mis üzərində döymə, ağac üzərində yandırma, oyma və digər mövzularda 1466 əl işi nümayiş olunub. "Naxçıvan: dünən və bu gün", "Naxçıvan abidələri", "Müasir Naxçıvan", "Muxtar respublikamızın füsunkar təbiətinin təsviri" və "Milli-mənəvi dəyərlərimiz və adət-ənənələrimizin təsviri" mövzularında üç mərhələdə təşkil edilən müsabiqənin muxtar respublika mərhələsində seçilən əl işləri yekun sərgidə nümayiş edilib. Sərgilənən yaradıcılıq nümunələri münsiflər heyəti tərəfindən mövzuya uyğunluq, təkrarçılığın olmaması, yaradıcı iş, orijinallıq, keyfiyyət, aktuallıq, kompozisiyanın tamlığı və digər meyarlara görə qiymətləndirilib.

Müsabiqənin şərtlərinə uyğun olaraq təsviri və dekorativ-tətbiqi sənətin hər biri üzrə bir I, iki II, üç III və altı həvəsləndirici yer olmaqla, ümumilikdə, 24 şagird təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

*Dünən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun "Naxçıvan" Universiteti Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı ilə "Naxçıvan" Universiteti tələbələrinin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ilə tanış olmaları üçün ekskursiyası təşkil edilmişdir.*

## Tələbələrin ekskursiyası təşkil edilib



Əvvəlcə Gənclər Fondunun əməkdaşı Xanım İbrahimova və "Naxçıvan" Universitetinin metodisti Sənan Əhmədov çıxış edərək muxtar respublikada gənclərə göstərilən dövlət qayğısından və onların asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə görülən işlərdən danışıblar. Ekskursiyanın gənclərin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi ilə tanış olmaları və tələbələrin asudə vaxtlarının mənalı təşkili məqsədilə keçirildiyi qeyd edilib.

Sonra gənclər Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində yaradılmış istirahət və xizək mərkəzi ilə yaxından tanış olublar. Məlumat verilib ki, Ağbulaq kəndinin təbiəti, havası və müasir infrastrukturu kənddə digər turizm növləri kimi qış turizminin də inkişafı üçün geniş imkanlar açır. Buna görə kənddə Ağbulaq İstirahət Mərkəzi yaradılmış, qış turizminin inkişafı sahəsindəki imkanları nəzərə alınaraq dağ-xizək mərkəzi qurulmuşdur. Vurğulanmışdır ki, bu gün həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıtmaqdadır.

Gənclər istirahət mərkəzində "Azərbaycanın ürəyidir Naxçıvan" filmini seyr edib, kanat yolu vasitəsilə Ağbulaq kəndinin əsrarəngiz gözəlliyini səmadan izləmək şansı əldə ediblər.

Sonda gənclər üçün çay süfrəsi təşkil olunub.

Qeyd edək ki, ekskursiyada, ümumilikdə, 30-a yaxın gənc iştirak edib.

**Xəbərlər şöbəsi**

## Hərbi xidmətdən tərxis edilmiş gənclərin məşğulluğu diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq hərbi xidmətdən tərxis olunmuş şəxslərin məşğulluqlarının təmin olunması və sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə Ordubad və Culfa rayonlarının hərbi xidmətdən tərxis edilmiş gənclərinin məşğulluqlarının təmin olunması ilə bağlı Culfa rayonunda tədbir keçirilib.

Tədbirdə yeni tərxis olunmuş gənclərin vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnmələri üçün peşə hazırlığı kurslarına cəlb olunmaları, onların əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib və qeydiyyatı aparılıb.

Qeyd edək ki, analoji tədbir Şərur, Sədərək və Kəngərli rayonları üzrə hərbi xidmətdən tərxis edilmiş gənclərin məşğulluqlarının təmin olunması ilə bağlı Şərur rayonunda da keçirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Oxunması zəruri olan kitablar*

## "Hökmdar" əsəri oxucuya nəyi aşılayır



XV-XVI əsrin məşhur filosofu, yazıçısı və dövlət adamı Nikolo Makiavelli 1469-cu ildə Florensiya şəhərində doğulub. Təhsilini Florensiya Universitetində alan gənc Makiavelli qısa zamanda Florensiya Respublikasının idarəetmə strukturunda müxtəlif vəzifələr tutmuşdu. Dünyagörüşünün formalaşmasında o, Platon, Aristotel, Siseron, Tit Livi, Ksenofon kimi filosofların təsirlənmişdir. Əsərlərinin və dünyagörüşünün təsiri o qədər güclü olmuşdur ki, özündən sonra Frensis Bekon, Tomas Hobs, Jan Jak Russo, Devid Hum kimi filosoflar ondan təsirlənmiş, onun fikirlərinə münasibətlərini bildirmiş və yeni əsərlər ərsəyə gətirmişlər.

Yaşadığı dövrdə İtaliyanın siyasi dağınıqlığı içində olması Makiavellinin dünyagörüşündə aydın şəkildə hiss edilir. Bu böyük mütəfəkkirin əsərlərinin ana fikri, əsasən, İtaliyanın birləşdirilməsinə və güclü mərkəzi dövlət şəklində formalaşmasına yönəldir.

Renesans dövrünün bu böyük mütəfəkkiri, diplomatı Nikolo Makiavellinin dünya bilik xəzinəsinə hədiyyə etdiyi ən qiymətli əsəri "Hökmdar"dır. "Hökmdar" öz aktuallığını itirmədən hər zaman müraciət edilən bir əsər olub. "Hökmdar" zamanın keşməkeşli yollarını aşıb dövrümüzdə də öz təsirini itirmir. Belə ki, bu əsərin qiyməti yazıldığı dövrdən və torpaqlardan çoxçox uzaq diyarlarda yüksək qiymətləndirilib.

Bu kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixində imzaladığı Sərəncam ilə "Oxunması zəruri olan kitabların Siyahısı"nda özünə yer alıb. Əsər gənclərin dünyagörüşünün formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Bir hökmdarın necə olması gərəkliyini reallıqlara dayanaraq təməlləndirən Makiavelli öz ideal hökmdar obrazı ilə yanaşı, realist hökmdar obrazı da yaratmışdır. Əxlaqi xəyalpərəstlik və gerçəkliklər arasındakı o incə fərqi müəllif oxucusuna aydın bir şəkildə izahını vermişdir. O bu əsərində dövlətlərin quruluşunu təhlil etmiş, Şərq və Qərb arasındakı fərqləri obyektiv şəkildə oxucuya çatdıra bilmişdir. Müəllif bir filosof kimi gələcəyin hökmdarlarına, keçmişin təcrübələrinə işıq salaraq tövsiyələr etmiş, onları ölkələrinin mənafelərini digər mənafelərdən üstün tutmağa səsləmişdir.

Makiavelli insanlarla əlaqəli işlərdə qəzavüqədərin roluna qismən tənqidi yanaşmaqdadır. O, insan həyatında qədərin rolunun yarı-yarıya olduğunu düşünür. Bütün bu təqdim etdiyi düşüncələri nəzərə alaraq, biz oxucular Makiavellinin hökmdar obrazında dövrünün ötəsində, reallıqları hər zaman öncəlik halına gətirən, aid olduğu dövlətin mənafeyini hər şeydən üstün tutan idarəçi rolunu görürük.

Müxtəlif düşüncə adamları da əsəri bir çox şəkildə qiymətləndirmiş, ona aid fikirlərlə çıxış etmişlər. Məsələn, Jan Jak Russo əsəri yüksək dəyərləndirmiş, onu xalqa və hökmdara nəsihət kimi təqdim etmişdir. Əsərin önəmini biz İtaliyanın 19-cu əsrdə birləşdirilmə hərəkatında da görürük. Əsərin son bölməsi o dövrdə İtaliyanın birləşdirilməsinin xəbərçisi olaraq şərh edilib.

Bu qiymətli əsər 20-ci əsrdə də çox fərqli şəkillərdə şərh olunub. Bəziləri əsəri politologiyaya realist axım gətirən güclü müşahidənin məhsulu olaraq görmüşdür. Başqa bir şərhə görə isə əsər hər hansı subyektiv düşüncənin yox, tamamilə obyektiv bir düşüncənin süzgəcindən keçərək qələmə alınıb.

Bu qiymətli abidə, görünür ki, əsrlər keçsə də, öz aktuallığını itirməyəcək və gələcək nəsillərin yoluna işıq tutacaqdır.

**Əminə RƏHİMLİ**

## Yeni arenada ilk məşq



***"Araz-Naxçıvan" Peşəkar Futbol Klubu hazırlıqlarını davam etdirir. Komanda dünən yeni istifadəyə verilən Uzunoba Təlim-Məşq İdman Kompleksinin süni örtüklü futbol meydançasında məşq keçib.***

Heyəti istedadlı yeniyetmə və gənc futbolçularla zənginləşdirən baş məşqçi Əsgər Abdullayev kompleksdə yaradılan şəraitdən maksimum şəkildə yararlanmaq niyyətindədir. Arena ilə tanışlıq zamanı məmnunluğunu ifadə edən təcrübəli mütəxəssis məşq öncəsi öz təəssüratlarını bölüşüb. Muxtar respublikada digər idman növləri ilə yanaşı, futbola da böyük önəm verildiyini vurğulayan Əsgər Abdullayev dövlətin həyata keçirdiyi idman strategiyasının bu sahəyə böyük töhfə verdiyini qeyd edib. O, yeni yaradılan infrastrukturun qarşıya qoyulan vəzifələrin icrası istiqamətində önəmli rola malik olduğunu bildirib.

Daha sonra komanda isinmə hərəkətləri və asta qaçışla məşqə start verib. Futbolçular məşq proqramına uyğun müxtəlif tapşırıqları icra ediblər. Sonda ikitərəfli oyun keçirilib.

Qeyd edək ki, "Araz-Naxçıvan" Peşəkar Futbol Klubu növbəti bütün məşq proseslərini məhz bu arenada keçirəcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Fövqəladə hallara hazırlıq günün tələbidir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən mart ayı ərzində muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələr icra edilmişdir.

2021-ci tədris ilinin "Uzlaşma planı"na və hazırlıq planlarına əsasən nazirliyin struktur qurumlarında fəaliyyət sahələrinin inkişafı üzrə gündüz və gecə məşğələlərinin keçirilməsi təmin olunmuşdur. Culfa rayonunda və Naxçıvan Muxtar Respublikası Mərkəzi Xəstəxanasında şərti olaraq baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili və qarşılıqlı fəaliyyət mövzusunda taktiki-xüsusi təlim, Mülki Müdafiə Alayı, Xüsusi Riskli Xilasetmə Xidməti, Ordubad, Şahbuz və Sədərək rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri ilə yanğınsöndürmə xidmətinin təşkili və aparılması üzrə nümunəvi məşğələlər keçirilmişdir.

Ötən ay sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə 11 təhlükə potensiallı obyekt yoxlanılmış, 23 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı verilmiş, 7 müəssisədə 194 işçinin iştirakı ilə maarifləndirmə-profilaktika işi aparılmış, 5 müəssisənin 70 texnoloji nəqliyyat vasitəsi cari il üçün texniki baxışdan keçirilmişdir. Standartların tələblərinə uyğun olmayan qızdırıcı elektrik və qaz cihazlarının istismarına yol verilməməsi məqsədilə Naxçıvan şəhəri, Babək və Şahbuz rayonlarında 15 ticarət obyektində təkrar baxış-yoxlamalar aparılmışdır.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün 156 obyektdə diqqətli, 197 obyektdə nəzəri, 46 obyektdə məqsədli yoxlama, 23 obyektdə 813 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Ay ərzində 5 min 376 yaşayış evinə baxış olmuş, yanğın cəhətdən təhlükəli olan 26 elektrik və 184 şlanqla çəkilmiş qaz xəttinin istismarı dayandırılmış, qazla işləyən 17 şofbentipli suqızdırıcısının və 257 tezqatlanan tüstü borusunun istismarı dayandırılmış, 9 min 502 nəfər yanğına qarşı təlimatlandırılmış, 41 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Muxtar respublikada yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumları tərəfindən 7 milyon 656 min 280 kvadratmetr ərazidə dezinfeksiya işləri aparılmışdır.

Ötən ay Culfa rayonu ərazisində Külək Elektrik Stansiyasının tikintisi ilə əlaqədar olaraq mühəndis-geoloji işlər aparılaraq qrunt nümunələri götürülmüş, 2 obyektin "İstismara hazırlıq aktı" tərtib olunmuş, 2 obyektə mühəndis-geoloji hesabat tərtib edilmiş, tikintisi aparılan 4 ictimai yaşayış binasının işçi və layihə sənədlərinin ekspertizası aparılaraq rəy verilmişdir. 38 obyektin işçi layihə sənədlərinin ekspertizadan keçirilməsi davam etdirilmiş, tikintisinə və yenidən qurulmasına yeni başlanılmış, 32 obyektə "Tikintidə dövlət nəzarəti jurnalı"nın açılması təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Dadaşov Cəfər Məhəmməd oğlunun adına Naxçıvan şəhər 6-cı küçə, döngə 7, ev 11 ünvanında yerləşən 2723 inventar nömrəli fərdi yaşayış evinin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Bayramov Məhi Fərman oğlunun adına olan Naxçıvan şəhəri, 35-ci məhəllə, döngə 7, ev 13-ə məxsus 59749 seriyalı çıxarış və 18576 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 293